## AZƏRBAYCAN QİDA TƏHLÜKƏSİZLİYİ İNSTİTUTU

## SƏRİŞTƏLİLİK SINAQ NƏTİCƏLƏRİ HAQQINDA HESABAT

# HESABAT

**Salmonella spp. təyini**
**MİK001/23**



**Ünvan: Bakı, Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi 73C**
**Telefon: (012) 377 00 20**
**Qaynar xətt: 1003**
**E-mail: info.pt@afsa.gov.az**

***Ümumi məlumat***

Səriştəlilik sınağının adı və kodu: ***Salmonella spp. təyini MİK001/23***

Sınaq materialının təqdim edildiyi tarix: 10.05.2023

Nəticələrin son təqdim edildiyi tarix: 24.05.2023

Hesabatın təqdim edildiyi tarix: 24.06.2023

***Hesabatı hazırladı :***

___________________________________

***Bağırova Gültəkin Seymur qızı***
***Keyfiyyətə nəzarət departamentinin***
***Keyfiyyət üzrə daxili audit şöbəsinin böyük mütəxəssisi***

___________________________________

***Əfəndibəyli Emin Muşfiq oğlu***
***Keyfiyyətə nəzarət departamentinin***
***Keyfiyyət üzrə daxili audit şöbəsinin böyük mütəxəssisi***

***Hesabatı yoxladı :***

___________________________________

***Qocayeva Tünzalə Firdovsi qızı***
***Keyfiyyətə Nəzarət departamentinin müdiri***

***Hesabatı təsdiq etdi :***

___________________________________

***Əliyeva Tamilla Aliyevna***
***İdarə Heyətinin sədr müavini***

## 1. GİRİŞ

### 1.1. Səriştəlilik sınaqları

Sınaq laboratoriyalarının xarici keyfiyyətə nəzarət vasitəsi kimi müayinə nəticələrinin düzgünlüyünün və etibarlılığının təmin olunması, sınaq nəticələrinin keyfiyyətinin, həmçinin personalın səriştəliliyinin artırılması məqsədilə səriştəlilik sınaqları təşkil edilir.

Səriştəlilik sınaq proqramına qatılmış laboratoriyaların həyata keçirdikləri sınaq nəticələri Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – AQTA) tərəfindən 2023-cü il yanvarın 1-dən “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən tanınır və etibarlı hesab edilir. Sınaqlar beynəlxalq ISO 17043 “Səriştəlilik sınaqlarına dair ümumi tələblər” standartına əsasən təşkil edilir.

Sınaqların heç bir mərhələsində (nümunələrin hazırlanmasından nəticələrin verilməsinədək) subpodratçılardan istifadə edilmir.

## 2. GİZLİLİK

Məxfilik siyasətinə uyğun olaraq, iştirakçılar və onların nəticələri haqqında məlumat heç bir halda üçüncü şəxslərə təqdim edilməməkdədir. Laboratoriyaların nəticələri konfidensiallığı qorumaq məqsədilə individual laboratoriya nömrələri ilə açıqlanır.

## 3. SINAQ MATERIALI

### 3.1. Səriştəlilik sınaq nümunəsinin tipi (Matriks)

***MİK001/23*** kod altında təşkil edilmiş şəriştəlilik sınaqlarında matriks olaraq aseptik şəraitdə qida məhsulu (süd) nümunəsi hazırlanmışdır.

### 3.2. Səriştəlilik sınaq nümunələrin hazırlanması

Sınaq nümunələri ***Salmonella spp.*** mikroorqanizmi ilə çirkləndirilmişdir. Səriştəlilik sınaqlarına qatılacaq hər bir sınaq laboratoriyası üçün 3 fərqli çirklənmə dərəcəsində nümunələr hazırlanmışdır. Hazırlanan hər bir nümunə 25 qram olmaqla 3-8$^{o}$C dərəcədə saxlanılaraq və soyuq zəncir prinsipinə əməl olunaraq sınaq laboratoriyalarına təqdim edilmişdir.

## 4. NƏTİCƏLƏR

**Səriştəlilik sınağının nəticələri**

| Laboratoriya №-si | Nümunənin №-si | Standart nəticə | Sınaq laboratoriyasının nəticəsi | Dəyərləndirmə |
|---|---|---|---|---|
| Lab_01 | № 24 | Blank | Aşkar edilmədi | Uyğundur |
| | № 06 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| | № 38 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| Lab_02 | № 47 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| | № 18 | Blank | Aşkar edilmədi | Uyğundur |
| | № 80 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| Lab_03 | № 19 | Blank | Aşkar edilmədi | Uyğundur |
| | № 52 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| | № 05 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| Lab_04 | № 93 | Blank | Aşkar edilmədi | Uyğundur |
| | № 61 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| | № 73 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| Lab_05 | № 12 | Blank | Aşkar edilmədi | Uyğundur |
| | № 17 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| | № 72 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| Lab_06 | № 23 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| | № 26 | Blank | Aşkar edildi | Uyğun deyil |
| | № 51 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |

## 5. NƏTİCƏLƏRİN DƏYƏRLƏNDİRİLMƏSİ

Süd nümunəsində Salmonella spp. təyini üzrə səriştəlilik sınağına 6 sınaq laboratoriyası qatılmışdır. Hər bir laboratoriya sınaqları həyata keçirmiş və nəticələri təqdim etmişdir.

Belə ki, 18 nümunədən 17 nümunənin nəticəsi düzgün təyin edilərək **"Uyğun"**, digər 1 nümunənin nəticəsi isə yanlış təyin edilərək **"Uyğun deyil"** olaraq dəyərləndirilmişdir.

Hər bir laboratoriyada sınaqlar ISO 6579-1:2017 "Qida zəncirinin mikrobiologiyası. Salmonella spp.nin horizontal metodla aşkarlanması, sayılması və serotiplənməsi metodu" Salmonella spp. təyini (detection) metoduna əsasən həyata keçirilmişdir.

Qeyd edək ki, hər bir iştirakçı laboratoriya qeyd edilən metod üzrə akkreditasiya edilmişdir.

*Fərdi nümunələrin uğurlu olma nisbəti aşağıdakı qrafikdə göstərilmişdir.*




**Çirklənmə səviyyəsinə görə laboratoriyalar tərəfindən təqdim edilmiş nəticələrin bölgüsü aşağıdakı qrafiklərdə göstərilmişdir.**






**Laboratoriyalar tərəfindən təqdim edilmiş nəticələrin uğur nisbəti aşağıdakı qrafikdə göstərilmişdir.**




Laboratoriyalara ümumilikdə “Blank”, “Aşağı Səviyyə” və “Yuxarı səviyyə”də çirkləndirilmiş 18 nümunə (hər bir çirkləndirmə səviyyəsi üçün müvafiq olaraq 6 nümunə) təqdim edilmişdir.

**Hər bir çirkləndirmə səviyyəsi üçün nəticələr aşağıdakı cədvəllərdə təqdim edilmişdir.**

| Nümunənin №-si | Standart nəticə | Sınaq laboratoriyasının nəticəsi | Dəyərləndirmə |
|---|---|---|---|
| № 17 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 38 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 47 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 51 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 52 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 61 | Aşağı səviyyə | Aşkar edildi | Uyğundur |

| | |
|---|---|
| Çirkləndirmə səviyyəsi | Aşağı |
| Təyin edilmiş dəyər | Pozitiv |
| Ümumi nümunə sayı | 6 |
| Uğurlu nəticə sayı (faizlə) | 100.0% |

| Nümunənin №-si | Standart nəticə | Sınaq laboratoriyasının nəticəsi | Dəyərləndirmə |
|---|---|---|---|
| № 12 | Blank | Aşkar edilmədi | Uyğundur |
| № 18 | Blank | Aşkar edilmədi | Uyğundur |
| № 19 | Blank | Aşkar edilmədi | Uyğundur |
| № 24 | Blank | Aşkar edilmədi | Uyğundur |
| № 26 | Blank | Aşkar edildi | Uyğun deyil |
| № 93 | Blank | Aşkar edilmədi | Uyğundur |

| | |
|---|---|
| Çirkləndirmə səviyyəsi | Blank |
| Təyin edilmiş dəyər | Neqativ |
| Ümumi nümunə sayı | 6 |
| Uğurlu nəticə sayı (faizlə) | 83.3% |

| Nümunənin №-si | Standart nəticə | Sınaq laboratoriyasının nəticəsi | Dəyərləndirmə |
|---|---|---|---|
| № 05 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 06 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 23 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 72 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 73 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |
| № 80 | Yuxarı səviyyə | Aşkar edildi | Uyğundur |

| | |
|---|---|
| Çirkləndirmə səviyyəsi | Yuxarı |
| Təyin edilmiş dəyər | Pozitiv |
| Ümumi nümunə sayı | 6 |
| Uğurlu nəticə sayı (faizlə) | 100.0% |

## 6. TEXNİKİ QEYDLƏR

Nümunələr ATCC 13076 Salmonella enterica kulturası ilə təxminən **250 KYV/qr** (Yuxarı səviyyə) və **25 KYV/qr** (Aşağı səviyyə) olmaqla çirkləndirilmişdir. Buna görə də Salmonella spp üçün təyin edilən dəyər "Aşkar olundu" kimi qeyd edilir.

*Salmonella enterica* selektiv mühitlərdə və təsdiqedici testlərdə cinsə xas olub, $H_2S$ müsbət, hərəkətli, laktoza mənfi və ureaza mənfidir. Salmonellalar *Enterobacteriaceae* ailəsinə aid, oksidaza mənfi və katalaza müsbət olan qram-mənfi, spor əmələ gətirməyən çubuqşəkilli bakteriyalardır. Demək olar ki, bütün Salmonella serotipləri kəskin qastroenteritlərə səbəb olur və bütün qida zəhərlənmələrinin böyük bir hissəsini təşkil edir. Salmonellaların əsas mənbələri heyvanların mədə-bağırsaq traktıdır; həyat fəaliyyəti məhsullarının torpağa, suya keçməsi ilə yemlərə, qidalara və digər heyvanlara, o cümlədən insanlara keçə bilər.

## 7. İSTİNAD SƏNƏDLƏR

**1.** ISO/IEC 17043 "Səriştəlilik sınaqlarına dair ümumi tələblər"

**2.**ISO 6579-1:2017 "Qida zəncirinin mikrobiologiyası.Salmonella spp.nin horizontal metodla aşkarlanması, sayılması və serotiplənməsi metodu"